“Qeydə alınmışdır”
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Qeydiyyat N 2685

“25” aprel 2001-ci il

Nazir ___________F.F.Məmmədov

Azərbaycan Respublikası Mərkəzi Bankı
İdarə Heyətinin 19 aprel 2001-ci il
tarixli qərarı ilə təsdiq edilmişdir.
Protokol N 14

“19” aprel 2001-ci il

İdarə Heyətinin Sədri________ E.S.Rüstəmov

# Azərbaycan Respublikasının bank sistemində balansdankənar əməliyyatların uçot Qaydaları

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar «Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında», «Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunlarına, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanmış və Azərbaycan Respublikasının bank sistemində (irəlidə «Bank») balansdankənar əməliyyatların uçot prinsiplərini müəyyənləşdirir.

1.2. Bu Qaydalar balansdankənar əməliyyatların mühasibat uçotunu tənzimləyir və maliyyə hesabatlarında əks etdirilməsi məqsədilə tətbiq edilir.

## 2. Anlayışlar

2.1. **Balansdankənar əməliyyatlar** – baş verdiyi anda mühasibat (balans) hesabatında aktiv və ya öhdəlik kimi tanınmayan əməliyyatlardır.

2.2. **Qeyri-müəyyən hadisə** – elə bir hadisə və ya vəziyyətdir ki, bu hadisənin nəticəsi (mənfəət və ya zərər) yalnız gələcəkdə həmin hadisənin baş verməsi və yaxud verməməsi faktı üzrə tanınır.

2.3. **Müqavilə (şərti) öhdəlikləri** – gələcəkdə müəyyən dövr üçün müəyyən şərtlərlə vəsaitlərin verilməsi və ya alınması haqqında bankın razılığıdır.

## 3. Balansdankənar hesabların təsnifləşdirilməsi

3.1. Balansdankənar əməliyyatlar bank riskinin mövcudluğuna görə aşağıdakı qaydada təsnifləşdirilir:

- təəhhüdlər və şərti balansdankənar əməliyyatlar
- memorandum balansdankənar əməliyyatlar

3.2. **Təəhhüdlər və şərti balansdankənar əməliyyatlar** gələcəkdə qeyri-müəyyən hadisələrin və müqavilə (şərti) öhdəliklərinin yaranmasına gətirib çıxaran, müştərinin adından aparılan və yaxud bankın özünün ticarət fəaliyyəti ilə bağlı olan və bank üçün risk təşkil edən əməliyyatlardır.

3.3. **Memorandum balansdankənar əməliyyatlar** təəhhüdlər və şərti balansdankənar əməliyyatlardan fərqli olaraq, bank üçün risk təşkil etməyən əməliyyatlardır.

## 4. Uçot

4.1. Balansdankənar əməliyyatların uçotu ikili yazılış metodu ilə balansdankənar hesablarda aparılır. Bu metoda görə müvafiq hesab debetləşir, müvafiq kontr-hesab kreditləşir və ya müvafiq hesab kreditləşir, müvafiq kontr-hesab debetləşir.

4.2. Təəhhüdlər və şərti balansdankənar əməliyyatlar müvafiq sənədlərin imzalandığı tarixdən müəyyən olunmuş dəyərlə müvafiq balansdankənar hesablarda tanınır və gələcəkdə isə istifadə olunmamış qalıq məbləği ilə əks olunur. İstifadə olunmuş məbləğ mühasibat (balans) hesabatında əks olunur.

4.3. Təəhhüdlər və şərti balansdankənar əməliyyatlarla əlaqədar tələblər və öhdəliklər aşağıdakı hallarda müvafiq balansdankənar hesablarda uçotdan çıxarılır:

- ödənildikdə;
- geri çağrıldıqda;
- müddəti ötdükdə;
- qanunvericiliklə müəyyən olunmuş digər hallarda.

4.4. Təəhhüdlər və şərti balansdankənar əməliyyatlar elan olunmuş nizamnamə kapitalının ödənilməmiş hissəsi, kommersiya banklarının məcburi ehtiyatlarının ödənilməmiş hissəsi, kredit əməliyyatları üzrə təəhhüdlər və şərti tələblər, kapital investisiyaları üzrə təəhhüdlər, xarici valyutanın alınması və ya satılması üzrə təəhhüdlər və şərti tələblər, qiymətli kağızların alınması və ya satılması üzrə

təəhhüdlər və şərti tələblər və sair maliyyə alətlərinin alınması və ya satılması üzrə təəhhüdlər və şərti tələblərlə bağlı bank üçün risk təşkil edən digər əməliyyatlardan ibarətdir və müvafiq balansdankənar hesablarda uçotu aparılır.

4.5. Memorandum balansdankənar əməliyyatlar bu əməliyyatların yaranması faktını təsdiq edən sənədlər əsasında müvafiq balansdankənar hesablarda tanınır.

4.6. Memorandum balansdankənar əməliyyatlar onların mövcudluğunu təkzib edən sənədlər əsasında müvafiq balansdankənar hesablarda uçotdan çıxarılır.

4.7. Memorandum balansdankənar əməliyyatlar girov, ödəniş əməliyyatları və sənədləri, balansdan silinmiş borclar, icarə və lizinq əməliyyatları, azqiymətli və tezköhnələn əşyalar və digər bank üçün risk təşkil etməyən əməliyyatlardan ibarətdir və müvafiq balansdankənar hesablarda uçotu aparılır.

## 5. Yenidənqiymətləndirmə

5.1. Balansdankənar hesablar üzrə yenidənqiymətləndirmə aşağıdakı hallarda aparılır:

- manatın məzənnəsi xarici valyutaya nisbətən dəyişdikdə;
- girovun qiyməti dəyişdikdə;
- qanunvericiliklə müəyyən olunmuş digər hallarda.

5.2. Balansdankənar hesablar üzrə yenidənqiymətləndirilmə müvafiq kontr-hesablar vasitəsilə həyata keçirilir.

## 6. Yekun müddəalar

6.1. Bu Qaydalar 01 iyun 2001-ci il tarixdən qüvvəyə minir.

**Balansdankənar əməliyyatların uçotuna dair metodoloji göstərişlər:**

1) Balansdankənar əməliyyatlar balansdankənar hesablarda uçota alınarkən aşağıdakı mühasibat yazılışları verilir:

**Balansdankənar aktiv hesablar üçün:**

Dt müvafiq balansdankənar aktiv hesab

Kt aktivlər üçün balansdankənar kontr hesab

**Balansdankənar passiv hesablar üçün:**

Dt passivlər üçün balansdankənar kontr hesab

Kt müvafiq balansdankənar passiv hesab

2) Balansdankənar əməliyyatlar balansdankənar hesablardan uçotdan çıxarılarkən aşağıdakı mühasibat yazılışları verilir:

**Balansdankənar aktiv hesablar üçün:**

Dt aktivlər üçün balansdankənar kontr hesab

Kt müvafiq balansdankənar aktiv hesab

**Balansdankənar passiv hesablar üçün:**

Dt müvafiq balansdankənar passiv hesab

Kt passivlər üçün balansdankənar kontr hesab